

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (21.750)

11 may 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Artıq 14-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

# Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü qeyd olunmuşdur





Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarələrin və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri də abidə önünə gül düzmüşlər.

Xalqının əbədiyaşar lideri kimi vətəninə tarixi nailiyyətlər qazandıran, adını vətən tarixinin şərəf salnaməsinə çevirən ulu öndər Heydər Əliyevin anadan olmasından 94 il ötür. Ölkəmizə hər iki rəhbərliyi dövrü böyük quruculuq, inkişaf, sabitlik və tərəqqi illəri kimi tarixə yazılan, ən çətin məqamlarda xalqının köməyinə çatan, onu məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbər hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayır və yaşayacaqdır.

Ulu öndər 1969-1982-ci illərdə keçmiş İttifaq respublikaları içərisində inkişaf səviyyəsinə görə geridə qalan Azərbaycanı qısa zamanda qabaqcıl respublikalar sırasına çıxardı. Respublikamızda kənd təsərrüfatı canlandırıldı, məhsul istehsalı artırıldı, yeni zavodlar, fabriklər, böyük sənaye müəssisələri tikildi, iş yerləri açıldı, yollar çəkildi, məktəb binaları, xəstəxanalar, mədəniyyət obyektləri istifadəyə verildi. Bununla yanaşı, həmin dövrdə imperiya təzyiqlərinə baxmayaraq milli ruhun və milli özünüdərkin dirçəldilməsi, milli dəyərlərimizin, adət-ənənələrimizin təbliği və qorunub-saxlanılması istiqamətində ardıcıl tədbirlər görüldü, bütün sahələrdə milli kadr hazırlığının əsası qoyuldu. Xüsusilə gənclərin hərb sənətinə marağının artırılması, hərbi təmayüllü məktəbin yaradılması, azərbaycanlı gənclərin Sovetlər Birliyinin nüfuzlu ali hərbi məktəblərində



təhsil almağa göndərilməsi dahi şəxsiyyətin ölkəmizin gələcək müstəqilliyi naminə həyata keçirdiyi məqsədyönlü tədbirlərin tərkib hissəsi idi. Sonrakı dövrdə zaman bir daha təsdiq etdi ki, ümummilli liderin ötən əsrin 70-ci illərində yaratdığı iqtisadi və milli kadr potensialı olmasaydı, Azərbaycanın müstəqilliyi haqqında danışmaq da mümkün olmayacaqdı.

Ötən əsrin 90-cı illərində xalqımızın böyük oğlunun siyasi arenadan uzaqlaşması ilə Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başladı. Xalqın əsl liderə ehtiyacı olduğu belə bir dövrdə dahi rəhbər Naxçıvandan xilaskarlıq missiyasına başladı, Azərbaycanın qurtuluş və inkişaf tarixini yazdı. Ümummilli liderimizin rəhbərliyi ilə Naxçıvanda milli dövlətçiliyimizin və müstəqilliyimizin bərpası istiqamətində qəti addımlar atıldı. Üçrəngli bayrağımız ilk dəfə Naxçıvan parlamentində qaldırıldı, Sovetlər Birliyinin mövcud olduğu bir vaxtda cəsarətli addım atılaraq Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri götürüldü. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarıldı, onların bazasında ilk milli ordu yaradıldı.

Ölkə Prezidenti cənab İlham Əliyev həmin dövrü xarakterizə edərək demişdir: ***“Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi dövlət bayrağı kimi təsdiq edildi... Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməsi məhz Naxçıvanda mümkün olmadı... Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişildi və Naxçıvan Muxtar Respublikası adı təsdiq edildi. Bu, müstəqilliyə gedən yolların müxtəlif istiqamətləri idi və o da təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan dövlətçiliyinin gələcəyi müəyyən edilirdi. Bunun nəticəsi olaraq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayanda xalq yenə də ulu öndərə üz tutdu, onu siyasi hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və beləliklə, Azərbaycanda quruculuq, sabitlik, inkişaf dövrü başladı”.***

Milli qurtuluş günündən başlanan quruculuq dövrü Azərbaycanda davamlı inkişaf mərhələsinin və hüquqi dövlət quruculuğunun əsasını qoydu, torpaqlarımızın işğalının qarşısı alındı, milli ordu yaradıldı, əhalinin rifahı yaxşılaşdırıldı, kompleks iqtisadi islahatlar həyata keçirildi. Düşünülmüş xarici siyasət kursu ölkəmizin mövqeyinin möhkəmlənməsinə və nüfuzlu beynəlxalq təşkilatlarda uğurla təmsil olunmasına imkan yaratdı, Azərbaycanın haqq səsi yüksək tribunalardan bütün dünyaya çatdırıldı.

Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev

Ardı 2-ci səhifədə



tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev yolu Azərbaycana davamlı inkişaf, sabitlik və firavan həyat bəxş etmişdir. Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Güclü ordu və möhkəm iqtisadi potensial Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirmişdir. Müstəqil Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir, regional enerji və nəqliyyat layihələrinin uğurlu iştirakçısı kimi öz iqtisadi və siyasi qüdrətini daha da artırır. Bütün bunların bir səbəbi var: o da ölkəmizdə davam və inkişaf etdirilən Heydər Əliyev yoludur. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışlar.

Ali Məclisin Sədri Heydər Əliyev Muzeyinə yeni eksponatlar təqdim etmişdir.

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sərgi salonunda ümummilli lider Heydər Əliyevə həsr olunmuş rəsm sərgisi açılıb





Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisi açılıb.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əməkdar rəssam Həbibə Allahverdiyevanın ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisinə baxmışdır.

Məlumat verilmişdir ki, mayın 8-də açılan və 10 gün davam edəcək "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisində rəssamın müxtəlif janrlarda işlədiyi 100-dən artıq rəsm əsəri nümayiş olunur. Portret, mənzərə, natürmort, Naxçıvan etüdləri, kompozisiyalar rəssamın peşəkarlığından və zəngin yaradıcılıq dünyasından xəbər verir.

Ali Məclisin Sədri sərgi ilə tanışlıqdan sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisinə görə rəssam Həbibə Allahverdiyevaya təşəkkür etmiş, ona yeni yaradıcılıq uğurları arzulamışdır.

Rəssam Həbibə Allahverdiyeva sərgidə iştirak etdiyinə, eləcə də rəssamlara göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yeni yaşayış binası istifadəyə verilmişdir





Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında hər il geniş quruculuq işləri aparılır, yaşayış məntəqələri müasir görkəmə qovuşur, insanların sosial-məişət şəraiti yaxşılaşdırılır. Son illər milli və müasir memarlıq üslubunda inşa olunan çoxmənzilli ictimai yaşayış binaları qədim Naxçıvan şəhərinin arxitektura quruluşunu daha da zənginləşdirmiş, sakinlərin müasir və rahat mənzillərlə təminatına səbəb olmuşdur.

Mayın 10-da – ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümündə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə maraqlanmışdır.

*Ardı 3-cü səhifədə*

Məlumat verilmişdir ki, 2015-ci ilin may ayında tikintisinə başlanılmış bina zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarətdir. İsti, soyuq və rütubətədavamlı izolyasiya qatına malik olan binada mənzillərin hər birinin ümumi sahəsi 240, yaşayış sahəsi isə 220 kvadratmetrdir. Müasir kommunal şəraitə malik mənzillərə daimi su və optik kabel xətləri çəkilmiş, onlar istilik, mərkəzləşdirilmiş antena və soyutma sistemləri ilə təmin olunmuş, lift quraşdırılmışdır.

Binanın həyətində abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemləri qurulmuşdur.

Ali Məclisin Sədri binanın müasir mühəndis-texniki tələblər və iqlim şəraiti nəzərə alınaraq inşa olunduğunu bildirmiş, bundan sonra aparılacaq tikinti işlərində də bu amillərin nəzərə alınmasını tapşırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda müasir xidmət sahəsi fəaliyyətə başlamışdır






Muxtar respublikanın sosial-iqtisadi inkişafı və mövcud turizm imkanları tələbata uyğun yeni xidmət sahələrinin yaradılmasını zərurətə çevirir. Aparılan quruculuq işlərində bu amil əsas götürülür, müasir xidmət sahələri istifadəyə verilir.

Mayın 10-da Naxçıvan şəhərində yeni xidmət sahəsi – " İdeal" ətriyyat və kosmetika mağazası fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri müasir xidmət sahəsinin fəaliyyətə başlaması münasibətilə keçirilən tədbirdə çıxış edərək demişdir: Bu gün ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü qeyd olunur. 10 may Azərbaycan xalqının həyatında əlamətdar tarixdir. Çünki ümummilli liderimiz Heydər Əliyevin yaşadığı ömür Azərbaycan xalqının tarixinə çevrilmişdir. Bu gün ulu öndər aramızda yoxdur. Lakin onun ideyaları Azərbaycan xalqı ilə bərabər yaşayır və bundan sonra da yaşayacaqdır. Ölkəmizdəki sabitlik, inkişaf, tərəqqi, insanların rifahının yaxşılaşması, tikilənlər, qurulanlar ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın inkişafı, möhkəmlənməsi və gələcəyi üçün çalışmışdır. Bu gün istifadəyə verilən elit yaşayış binası və xidmət sahəsi də ölkəmizin inkişafının göstəricisidir. Hər bir ölkənin davamlı inkişafı isə əhalinin bütün təbəqələrinin tələbatına uyğun yaşayış və xidmət sahələrinin yaradılmasına imkan verir. Muxtar respublikada bütün təbəqələr üçün yeni yaşayış binaları və xidmət sahələri tikilərək istifadəyə verilir. Bütün bunlar insanların həyat tərzinin göstəricisidir. Çünki ölkənin inkişafını göstərən əsas sahələrdən biri də insanların müxtəlif həyat tərzinə malik olmasıdır.

Ali Məclisin Sədri yeni xidmət sahəsinin yaradılmasında əməyi olanlara təşəkkür etmişdir.

Bildirilmişdir ki, yeni istifadəyə verilən yaşayış binasının birinci mərtəbəsində yerləşən "İdeal" ətriyyat və kosmetika mağazasında dünyanın məşhur firmalarının istehsal etdikləri məhsullar alıcılara təklif olunur. Məhsulların hər birinin mənşəyi və keyfiyyəti diqqətdə saxlanılır. Mağazada "İdeal" firmasının öz istehsalı olan müxtəlif məhsullar da satışa çıxarılır.

Ali Məclisin Sədri xidmət sahəsinin fəaliyyətinin təşkili ilə bağlı aidiyyəti üzrə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü muxtar respublikamızda bayram əhval-ruhiyyəsi ilə qeyd edilib

### *Şərur rayonu*



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonuna yüksək qiymət verərək deyib: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Ulu öndər Azərbaycanda hakimiyyətdə olduğu illərdə Şərurun da inkişafına böyük diqqət yetirir, burada məqsədyönlü quruculuq tədbirlərinin həyata keçirilməsini, müxtəlif sahələrdə islahatlar aparılmasını zəruri sayırdı. Rayonda ittifaq əhəmiyyətli konserv, dəmir-beton konstruksiyaları, çörək zavodları, üzümün ilkin emalı müəssisəsinin işə salınması məhz görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə bölgəyə böyük qayğısının ifadəsi kimi indi də şərurlular tərəfindən minnətdarlıqla xatırlanır. Elə o dövrdə rayonda 150 milyon kubmetr tutuma malik Arpaçay Su Anbarı, bu anbardan qidalanan sağ və sol sahil kanalları istismara verilib, mədəniyyət sarayı, mərkəzi xəstəxana, rabitə evi, dəmiryol vağzalı, yeni kitabxanalar, klublar, sahə xəstəxanaları, məktəblər tikilib. Aralıq kəndindən qidalanan dairəvi su kəməri vasitəsilə təkcə Şərur rayonunun deyil, Naxçıvan şəhərinin sakinləri və Babək rayonunun bir hissəsi ekoloji cəhətdən təmiz içməli su ilə təmin olunub. Rayon mərkəzində hündürmərtəbəli yaşayış binaları inşa edilib, kəndlərin sosial-iqtisadi inkişafı diqqət mərkəzində saxlanılıb. Rayonda aqrar sahə sürətli inkişaf yoluna qədəm qoyub. Bunun nəticəsidir ki, adıçəkilən dövrdə bölgədə üzüm istehsalı 100 min tonu ötüb, taxıl, tütün, meyvə, tərəvəz, heyvandarlıq məhsulları istehsalı dəfələrlə artıb.

Ölkəmizin müstəqillik dövründə rayonun inkişafı da dahi rəhbər Heydər Əliyevin adı ilə bağlıdır.

Heç şübhəsiz ki, hələ neçə əsrlərboyu dahi şəxsiyyətin aydın, parlaq ideyaları Azərbaycan Respublikasının müstəqilliyinin əbədi, sarsılmaz olmasına, hərtərəfli inkişafına, dövlətimizin dünya birliyində mövqeyinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Bu gün fəxrlə demək olar ki, ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan onun siyasətinin layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu və hərtərəfli inkişaf yolunda irəliləyir.

Xalqımızın ümummilli lideri, bütün zamanların ən böyük azərbaycanlısı Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da geniş şəkildə qeyd olunub. Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin İcra Hakimiyyətinin qarşısındakı əzəmətli abidəsi önünə gəlib, ümummilli liderə, onun əbədiyaşar siyasətinə sadiq olduqlarını bir daha nümayiş etdirib, abidə önünə tər güllər düzüblər.

**Elman MƏMMƏDOV**

### *Babək rayonu*

***Babək rayonu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il oktyabrın 23-də yaradılıb. Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Babək rayonu məhz dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, ölkəmizin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi həyata vəsiqə alıb. Rayona xalq qəhrəmanı Babəkin adının verilməsi isə ulu öndərin siyasi iradəsi və qətiyyəti ilə yanaşı, həm də milli-tarixi ənənələrə böyük bağlılığının və sevgisinin nəticəsi idi.***



Naxçıvan Muxtar Respublikasının digər rayonları kimi, Babək rayonu da son illərdə böyük inkişaf yolu keçib, rayonun yaşayış məntəqələri abadlaşdırılıb, yeni yollar salınıb, onlarla müxtəlif profilli obyektlər tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Həyata keçirilən tədbirlər nəticəsində rayon muxtar respublikanın aqrar və sənaye məhsullarının istehsalında mühüm yerə sahib olub, burada digər sahələrin də inkişafına nail olunub. Görülən işlərin Heydər Əliyev ideyalarına sadiqlikdən qaynaqlandığını dərk edən rayon sakinləri mayın 10-da ümummilli liderimizin anadan olmasının 94-cü ildönümünü yüksək əhval-ruhiyyə ilə qeyd ediblər. Rayon mərkəzindəki Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi önünə yüzlərlə insan toplaşaraq dahi şəxsiyyətə öz sevgilərini bir daha nümayiş etdirib, abidə önünə gül dəstələri qoyublar.

**✍ Səbuhi HƏSƏNOV**

* * *

### *Ordubad rayonu*

*Mayın 10-da ulu öndərimizin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun sakinləri xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin Ordubad şəhərindəki büstü önünə gələrək dahi rəhbərin əziz xatirəsini dərin ehtiramla yad edib, abidə önünə gül dəstələri qoyublar.*



Ulu öndərimizin büstünü ziyarət zamanı həmsöhbət olduğumuz rayon sakinləri bildirdilər ki, ümummilli liderimizin rayon üçün yadigarları saymaqla qurtaran deyil. Rayonun hərtərəfli inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Zəngin fauna və floraya, tarixi-mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması dahi şəxsiyyətin bu bölgəyə böyük qayğısının ifadəsi kimi indi də yaddaşlarda yaşayır.

Ulu öndərimizin böyük diqqət göstərdiyi Ordubad bu gün tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Bütün bunlar dahi rəhbərimizin dövlətçilik ideyalarına sədaqətin bəhrələridir. Odur ki, xalqımızın ümummilli liderinin xatirəsi rayon sakinləri tərəfindən daim minnətdarlıqla yad edilir, ulu öndərimizin adı həmişə əziz tutulur.

Rayon ziyalısı Sahilə Abdullayeva deyir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunub. Onun həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Xalqın sevimlisi olan bu şəxsiyyət hər bir azərbaycanlının yaddaşında yaşayır.

**✍ Fatma BABAYEVA**

*Ardı 4-cü səhifədə*

## Culfa rayonu



*Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Culfa rayonunda da böyük bayram əhval-ruhiyyəsi ilə qeyd olunub.*

Rayon bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə burada bütün sahələrin inkişafı diqqətdə saxlanılıb. Ötən əsrin sonlarında dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda torpaq islahatlarına ilk dəfə Culfa rayonunun kəndlərində başlanılıb, kəndli əkib-becərdiyi torpağın sahibinə çevrilib. İqtisadi, sosial, mədəni sahələrdə atılan addımlar son illərdə rayonun hərtərəfli inkişafına geniş imkanlar açıb. Bu yeni inkişaf mərhələsində Culfanın kənd yaşayış məntəqələrinin böyük əksəriyyətində kompleks quruculuq işləri aparılıb, onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Kənd yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzi olan Culfa şəhəri də quruculuq və abadlıq tədbirlərindən öz nəsibini alaraq daha da gözəlləşib. Sakinlər onlara bu xoş günləri bəxş edən ümummilli liderimizin misilsiz xidmətlərini unutmurlar.

Mayın 10-da rayon sakinləri dahi şəxsiyyətin anadan olmasının 94-cü ildönümündə ulu öndərimizin Culfa şəhərindəki büstü önünə gələrək görkəmli dövlət xadiminin əziz xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

✍ **Nail ƏSGƏROV**

* * *

## Şahbuz rayonu



*Mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da geniş qeyd olunub.*

Rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Şahbuz şəhərinin mərkəzində ucaldılmış büstü önünə tər gül dəstələri düzüb, görkəmli dövlət xadiminə bir daha öz dərin ehtiramlarını ifadə ediblər.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Şahbuz rayonunun da iqtisadiyyatı inkişaf etdirilib, tikinti, quruculuq və abadlıq tədbirləri geniş vüsət alıb, əhalinin maddi rifah halı yüksəldilib. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində ucqar dağlıq rayon olan Şahbuzda Şərab, Badamlı Mineral Sular, Avtomobil Təmiri zavodları, Naxçıvan şəhərindəki Radio Zavodun və Alt Trikotaj Fabrikinin Şahbuz filialları fəaliyyət göstərib. O dövrdə rayonda dərman bitkiləri, dəri, meyvə, süd emalı və yun tədarükü məntəqələrinin də yaradılması əhali məşğulluğunun artırılması və həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradıb. Bütün bunlar şahbuzluların yaşayışına təsir edib.

Ulu öndərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı dövründə Şahbuz rayonunda da genişmiqyaslı quruculuq işlərinə başlanılıb. Həyata keçirilən abadlıq işləri nəticəsində simasını büsbütün dəyişən rayon təkcə muxtar respublikamızın deyil, ölkəmizin ən gözəl bölgələrindən birinə çevrilib. Şahbuz qəsəbəsinə şəhər statusu verilib və daha da genişlənib. Rayon ərazisində yaradılmış Şahbuz Dövlət Təbiət Qoruğu, Heydər Əliyev Su Anbarı, şahbuzluları firavan həyata qovuşduran müasir yollar, çox sayda yeni təhsil və səhiyyə ocaqları, sosial xidmət obyektləri və istehsal müəssisələri ulu öndər Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi siyasətin bəhrələridir. Dahi rəhbərin xalqımız qarşısındakı misilsiz xidmətləri qədirbilən şahbuzlular tərəfindən də minnətdarlıqla xatırlanır.

✍ **Əli CABBAROV**

## Kəngərli rayonu



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü il martın 19-da Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb. Yeni rayonun yaradılması yüzlərlə yeni iş yerinin açılmasına, bölgə iqtisadiyyatının güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaradıb.***

Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatıb. Xüsusilə qeyd olunmalıdır ki, Kəngərli rayonunun bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılıb, bölgənin kəndləri müasirliyə qovuşub. Bütün bunlar muxtar respublikada sədaqətlə davam etdirilən ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurlu bəhrələridir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Kəngərli rayonunda da geniş qeyd edilib. Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzindəki abidəsi yüzlərlə insanın axın etdiyi məkana çevrilib. Rayon ictimaiyyəti, bölgənin müxtəlif idarə, müəssisə kollektivləri ulu öndər Heydər Əliyevin əzəmətli abidəsini ziyarət etməklə, dahi şəxsiyyətə olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.

Tədbirdə bir neçə bölgə sakini ilə həmsöhbət olduq. Rayon ziyalısı Yusif İmanov bildirdi ki, ümummilli liderin ideyalarının muxtar respublikada həyata keçirilməsi bütün bölgələrimiz kimi, Kəngərli rayonunu da gözəlliklər diyarına çevirib. Tarix üçün çox qısa bir dövrü əhatə etsə də, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirilib, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verib. Rayon mərkəzində tikilən müasir inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi Kəngərlinin simasına xüsusi yaraşıq verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək dəyərləndirib, rayona səfərləri çərçivəsində bir sıra quruculuq ünvanlarının açılışında iştirak edib. Fəxrlə demək olar ki, Kəngərli rayonu muxtar respublikamızın ən gənc rayonu olmasına baxmayaraq, qısa müddət ərzində böyük inkişaf yolu keçib. Regionda həyata keçirilən quruculuq tədbirlərindən öz payını alan bu qədim yurd yeri indi müasirliyi, sosial-iqtisadi uğurları ilə gələcəyə doğru inamla addımlayır.

**Gülcamal TAHİROVA**

* * *

## Sədərək rayonu

***Dünən Sədərək rayonunda rayon ictimaiyyətinin nümayəndələri Heydərabad qəsəbəsinin mərkəzində ucalan ulu öndərin büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər.***



XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən hücumlara məruz qalan Sədərək rayonu bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər gedib. O zaman buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün öz siyasi nüfuzu, zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində dünyanın diqqətini burada baş verən hadisələrə yönəldib.

Rayon sakinlərindən Teymur Quliyev, İsmayıl İsmayılbəyli, Pərvanə Rəhimova və başqaları ilə həmsöhbət olduq. Onlar bildirdilər ki, dahi rəhbərimizin muxtar respublikanın bu bölgəsinin müdafiəsi yolunda xidmətlərini hər bir sədərəkli böyük minnətdarlıqla xatırlayır. Ulu öndərimizin Azərbaycana rəhbərliyinin birinci dövründə yaradılan Heydərabad qəsəbəsi ötən əsrin 90-cı illərində erməni təcavüzü nəticəsində tamamilə dağıdılaraq yaşayış üçün yararsız hala salınmışdı. Lakin son illər ərzində qəsəbədə aparılan quruculuq işləri nəticəsində bura yeni görkəm alıb, sakinlərin yaşayışı üçün hərtərəfli şərait yaradılıb. Rayon sakinləri yaşadıqları yurd yerinin nümunəvi vəziyyətdə saxlanılması və daha da inkişaf etdirilməsi üçün öz səylərini əsirgəmir, Heydərabadı Azərbaycanın ən nümunəvi qəsəbəsi kimi qoruyub saxlayırlar.

**Sərxan İSMAYILOV**

# Naxçıvan Muxtar Respublikasının 450 mininci sakini ilə görüş keçirilib

***Naxçıvan şəhər sakinləri Orxan Babayev ilə Şəbnəm Abdullayevanın ailəsində mayın 4-də Naxçıvan Muxtar Respublikasının 450 mininci sakini – Babayev Fərhad Orxan oğlu anadan olmuşdur.***



Mayın 10-da – ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümündə Doğum Mərkəzində bu münasibətlə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov körpənin anası Şəbnəm Abdullayevaya övladının Naxçıvan Muxtar Respublikasının 450 mininci sakini olması ilə bağlı arayış təqdim edib.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov uşağın sağlamlığı haqqında məlumat verərək deyib ki, 3 kiloqram 800 qram çəkidə doğulan uşaq tam sağlam şəkildə dünyaya gəlib və inkişaf prosesi normal qaydada gedir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov muxtar respublikanın 450 mininci sakini ilə bağlı tədbirin ümummilli liderin anadan olmasının 94-cü ildönümünün təntənəli şəkildə qeyd olunduğu bir gündə keçirildiyini vurğulayaraq deyib ki, ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə, uğurlu strategiyaya əsaslanan alternativsiz inkişaf yolu bu gün muxtar respublikamızda müvəffəqiyyətlə davam etdirilir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində davamlı sosial-iqtisadi yüksəlişə nail olunub. Son illər muxtar respublikamızda əhalinin etibarlı sosial müdafiəsinin, habelə insanların yüksək rifah halının təmini istiqamətində reallaşdırılan ardıcıl tədbirlər də ulu öndərin müəyyənləşdirdiyi milli inkişaf modelinin sosialyönümlü səciyyəsindən irəli gəlir. Muxtar respublikamızın paytaxtında olduğu kimi, rayonlarda, ən ucqar kəndlərdə belə, ən müasir infrastrukturun qurulması, mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılması muxtar respublikada demoqrafik artıma özünün müsbət təsirini göstərib. Məhz bunun nəticəsidir ki, ötən 8 il ərzində muxtar respublikada əhalinin sayı 400 mindən 450 min nəfərə çatıb.

Rəhman Məmmədov uşağın anasını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin adından təbrik edərək ona mükafat təqdim edib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikanın 450 mininci sakininə hədiyyələr veriblər.

Valideyn Şəbnəm Abdullayeva göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 387